# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

Bakı şəhəri № 233/5 17 iyul 2012-ci il

“Sərbəst auditorların gündəliklərinə dair hesabatlarının elektron qaydada hazırlanması, göndərilməsi, təqdim edilməsi və işlənilməsi haqqında” Təlimat barədə

“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Dövlət orqanlarının elektron xidmətləri göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 2011-ci il 23 may tarixli Fərmanının və ölkə başçısının sədrliyi ilə keçirilmiş Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında yekun nitqində dövlət qurumlarında elektron xidmətlərin göstərilməsi barədə verdiyi tapşırığın icrası ilə əıaqədar Auditorlar Palatasının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində tədbirlərin həyata keçirilməsi barədə” Palata sədrinin 2012-ci il 19 aprel tarixli 1/4 saylı sərəncamından irəli gələn vəzifələrin və Palata Şurasının 2012-ci il 25 aprel tarixli 231/2 saylı qərarının - “Sərbəst auditorların gündəliklərinə dair hesabatların elektron qaydada hazırlanması, göndərilməsi, təqdim edilməsi və işlənilməsi haqqında” Təlimatın hazılanıb təqdim edilməsi” 3-cü bəndinin icrası ilə bağlı Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi (M.Abbasov) tərəfindən hazırlanmış layihəni müzakirə edərək, Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. “Sərbəst auditorların gündəliklərinə dair hesabatların elektron qaydada hazırlanması, göndərilməsi, təqdim edilməsi və işlənilməsi haqqında” Təlimat təsdiq edilsin (əlavə olunur).
2. Sərbəst auditorlar tərəfindən gündəliklərin elektron qaydada göndərilməsi üçün Palatanın internet səhifəsində xüsusi link yaradılsın.
3. “Təlimat”ın tətbiqinə Palatanın saytında xüsusi link yaradıldıqdan sonra başlanılsın və bu barədə sərbəst auditorlara əlavə məlumat verilsin.
4. “Sərbəst auditorların gündəliklərinə dair hesabatların elektron qaydada hazırlanması, göndərilməsi, təqdim edilməsi və işlənilməsi haqqında” Təlimat Palatanın internet səhifəsində yerləşdirilsin.
5. Sərbəst auditorlara tapşırılsın ki, öz fəaliyyətlərini əks etdirən gündəlikləri “Təlimata”ın tələblərinə uyğun olaraq tərtib edərək müəyyən olunmuş müddətdə Auditorlar Palatasına təqdim etsinlər.

6. Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsinə (M.Abbasov) taşırılsın ki, “Sərbəst auditorların gündəliklərinə dair hesabatların elektron qaydada hazırlanması, göndərilməsi, təqdim edilməsi və işlənilməsi haqqında” Təlimatın tələblərinə sərbəst auditorlar tərəfindən riayət edilməsinə nəzarəti həyata keçirsin.

7. Bu qərarın Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**